


*AHİK-in İcraiyyə Komitəsi Azərbaycan xalqını və vətənimizin keşiyində dayanan Ordumuzun şəxsi heyətini 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə təbrik edir*



AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASI

# ülfət

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ QƏZETİ

QƏZET 1991-ci İLDƏN ÇIXIR

CÜMƏ AXŞAMI, 24 İYUN 2020-ci il / № 23 (1241)

WWW.ULFET-AZ.COM / ULFET-AZ@MAIL.RU

*Rəsmi xronika*

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev

**(iyunun 21-də)**

**... Qazaxıstan Respublikasının Baş nazirinin müavini, xarici işlər naziri Muxtar Tleuberdini qəbul edib.**

... Pakistan İslam Respublikasının Quru Qoşunları komandanı ordu generalı Qamar Caved Bacvanı qəbul edib.

... Goranboy rayonunun Əlirzalı-Xan Qərvənd-Səfikürd-Tap Qaraqoyunlu avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

**(iyunun 22-də)**

**.... Kəlbəcər rayonu ərazisində dövlət sərhədinin mühafizəsi və müdafiəsinin təşkilinin elektrik enerjisi ilə təchizatı haqqında Sərəncam imzalayıb.**

... Məişət tullantıları ilə bağlı idarəetmə sahəsində bəzi məsələlərin tənzimlənməsi və "Bakı şəhərində məişət tullantıları ilə bağlı idarəetmənin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 6 avqust tarixli 2983 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.

**(iyunun 23-də)**

**... BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Anxel Moratinosu qəbul edib.**

... Birləşmiş Ərəb Əmirliklərinin iqtisadiyyat naziri Abdulla Bin Touq Al Marrini qəbul edib.

... Dövlət qulluqçularının təltif edilməsi haqqında Sərəncam imzalayıb.



# İyulun 1-dən Azərbaycanda şənlik mərasimlərinin keçirilməsinə icazə verilir




**Son aylarda COVID-19 infeksiyasına yoluxma hallarının sayında əhəmiyyətli azalma və ümumi epidemioloji vəziyyətin müsbətə doğru dəyişməsi həyata keçirilən səmərəli tədbirlərin təzahürüdür. Müşahidə olunan müsbət tendensiya, habelə 2021-ci ilin əvvəlindən həyata keçirilməsinə başlanmış vaksinasiya prosesinin uğurla davam etdirilməsi xüsusi karantin rejimi çərçivəsində tətbiq olunmuş bir sıra məhdudiyyətlərin aradan qaldırılmasına əlavə imkanlar yaradır.**

Bununla əlaqədar, Nazirlər Kabineti yanında Operativ Qərargah 2021-ci il iyulun 1-dən aşağıda göstərilən şərtlər nəzərə alınmaqla şənlik mərasimlərinin (toy, nişan, ad günləri və s.) keçirilməsinə icazə verilməsi haqqında qərar qəbul edib:

-50 nəfərdən 150 nəfərə qədər şəxslərin iştirakı ilə təşkil olunan şənlik mərasimlərinə münasibətdə:

-yaşı 18-dən yuxarı olan bütün şəxslərin iştirakına yalnız COVID-19-a qarşı tam peyvənd olunması və ya COVID-19-dan sağalaraq immunitetə malik olması barədə təsdiqedici sənəd (bundan sonra - COVID-19 pasportu) olduğu halda icazə verilir və şənlik mərasimlərində iştirak edən qonaqlar üçün tənəffüs yollarını qoruyan fərdi vasitələrdən məcburi istifadə tələbi ləğv edilir;

**-Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 26 may tarixli 151 nömrəli Qərarına əsasən 2021-ci il iyulun 1-dən etibarən COVID-19 pasport tələbi tətbiq olunan məkanlarda çalışan işçi heyətin (müvəqqəti işə cəlb edilmiş işçilər daxil olmaqla) azı 80 faizinin COVID-19 pasportuna malik olması mütləqdir (1 avqustadək birinci doza qeyd olunmuş vaksinasiya sertifikatı qəbul edilir). Şənlik mərasimində xidmət göstərən heyətin (musiqiçilər istisna olmaqla) tibbi maskalardan, əlcəklərdən və digər fərdi qoruyucu vasitələrdən istifadəsi məcburidir;**

-şənlik mərasimi keçirilən məkanın və ya müəssisənin sahibi tərəfindən həmin obyekt daxilində fəaliyyət göstərən tədbir zalları, onların tutumu və çalışan işçi heyət (müvəqqəti işə cəlb edilmiş işçilər daxil olmaqla) barədə məlumat müvafiq portala (icaze.e-gov.az) daxil edilməldir. Portal 2021-ci il 26 iyun tarixindən etibarən müvafiq məlumatları daxil etmək üçün aktiv ediləcəkdir;

**-keçiriləcək tədbirin tarixinə ən azı 5 gün qalmış tədbirin keçirilmə tarixi, başlama və bitmə vaxtı (saat 0:00-dan gec olmamaq şərtilə), qonaq sayı barədə məlumatlar portala daxil edilməlidir. Portal üzərindən qeydiyyata salınmayan və barəsində müvafiq məlumat daxil edilməyən şənlik mərasimlərinin keçirilməsi qadağandır;**

-şənlik mərasimlərinin təşkili və keçirilməsi zamanı karantin rejiminin qaydalarına əməl edilməsi ilə bağlı şənlik və məkan sahibi arasında müştərək məsuliyyət barədə iltizamnamə imzalanmalıdır. Müəyyən olunmuş tələblərin pozulması hallarına görə məkan və şənlik sahibi birgə cavabdehlik daşıyacaqlar;

-sanitar-epidemioloji tələblərə riayət olunması məqsədilə yuxarıda qeyd olunan məsələləri və digər tələbləri özündə ehtiva edən metodiki göstərişlər təsdiq olunaraq şənlik mərasimlərinin təşkili və keçirilməsində rəhbər tutulacaqdır;

**- 50 nəfərə qədər şəxslərin iştirakı ilə təşkil olunan şənlik mərasimlərinin "İctimai iaşə müəssisələrində koronavirus infeksiyasının (COVID-19) profilaktikasına dair metodiki göstərişlər"də müəyyən olunmuş tələblərə uyğun olaraq təşkil edilməsinə icazə verilir (tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə tələbi saxlanılmaqla) və həmin şənlik mərasimlərində iştirak üçün COVID-19 pasportunun təqdim edilməsi tələb olunmur;**

-150 nəfərdən artıq iştirakçısı olan şənlik mərasimlərinin keçirilməsi növbəti yumşalma barədə qərar qəbul olunanadək qadağan edilir;

İctimai iaşə obyektlərinin monitorinqləri ilə yanaşı, 50 nəfərdən 150 nəfərə qədər şəxslərin iştirakı ilə təşkil olunan şənlik mərasimlərində koronavirus infeksiyasının idarə olunması ilə bağlı nəzarəti təmin etmək məqsədilə müntəzəm yoxlamalar aparılacaqdır. Monitorinq qrupları Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin və Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin nümayəndələrindən ibarət tərkibdə təşkil olunacaqdır.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən, epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulmasına görə fiziki şəxslər iki yüz manatdan dörd yüz manatadək məbləğdə, vəzifəli şəxslər dörd min manatdan beş min manatadək məbləğdə cərimə edilir, yaxud işin hallarına görə xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla, bir ayadək müddətə inzibati həbs tətbiq olunur, hüquqi şəxslər beş min manatdan on bir min manatadək məbləğdə cərimə edilir. Hüquqi şəxslər tərəfindən pozuntu halı təkrar baş verdiyi təqdirdə, şənlik mərasimi keçirilən müəssisənin fəaliyyətinin dayandırılmasına dair qanunvericiliklə müəyyən edilmiş hallarda qərar qəbul edilə bilər.

**Suallar olduğu təqdirdə, 9108 nömrəli qaynar xəttə müraciət oluna bilər.**

## Səttar Möhbalıyev:
## "Peyvənd olunmaq koronavirusu həyatımızdan çıxarmağın yeganə yoludur"

BAX SƏHİFƏ: 2

## Ən yaxşılar fərqləndirildi

BAX SƏHİFƏ: 3

*Dövlət İdarələri və İctimai Xidmət İşçilərinin Həmkarlar İttifaqında*

BAX SƏHİFƏ: 2

*Layiqli Əmək üzrə yeni Ölkə Proqramında əks olunacaq prioritetlər müzakirə edilib*

BAX SƏHİFƏ: 2

*İsti havada işlər hansı halda dayandırıla bilər?*

BAX SƏHİFƏ: 4

# *Koronavirus infeksiyasından 84 nəfər müalicə olunaraq sağalıb*




**Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 84 nəfər müalicə olunaraq sağalıb, 57 yeni yoluxma faktı qeydə alınıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 2 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 335 min 625 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 329 min 794 nəfər müalicə olunaraq sağalıb, 4965 nəfər vəfat edib. Aktiv xəstə sayı 866 nəfərdir.

**Ötən müddət ərzində 3 milyon 698 min 172 test aparılıb. Bugünkü test sayı isə 7948-dir.**




BAX SƏHİFƏ: 4

**Həmkarlar ittifaqına üzv ol - iş yerinə təminat al!**

*(Əmək Məcəlləsinin 80-ci maddəsinə əsasən, işəgötürən həmkarlar ittifaqı üzvünü bu təşkilatın razılığı olmadan işdən azad edə bilməz)*

*Beynəlxalq*

**Dəmiryolçular tətil edirlər**

BAX SƏHİFƏ: 4

**Müsabiqə qalibləri mükafatlandırıldı**

BAX SƏHİFƏ: 3

# Səttar Möhbalıyev: “Peyvənd olunmaq koronavirusu həyatımızdan çıxarmağın yeganə yoludur”



**“Birmənalı olaraq deməliyik ki, Azərbaycan dövləti pandemiya ilə mübarizənin ilk günlərindən əhalinin həm sağlamlığını, həm də yüksək rifahını qorumaq üçün bütün lazım olan tədbirləri vaxtında və ən effektiv şəkildə həyata keçirib. Əgər bu gün Azərbaycan dünyada pandemiyanın qurbanlarının sayına görə sonuncu yerlərdə olan ölkələrdən biridirsə, bu da məhz dövlətimiz tərəfindən həyata keçirilən qabaqlayıcı tədbirlərin səmərəliliyinin nəticəsidir. Lakin indi artıq koronovirusdan, sadəcə, qorunmağın deyil, onu həyatımızdan tamamilə çıxarmağın vaxtıdır. Buna isə yalnız və yalnız vaksinasiya ilə nail olmaq olar”.**

AZƏRTAC xəbər verir ki, bunu Milli Məclisin deputatı, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Səttar Möhbalıyev deyib.

O bildirib ki, əslində, təkcə Azərbaycanda deyil, bütün dünyada pandemiya ilə mübarizə tədbirlərinin əsas məqsədi məhz vaksin tapılan vaxta qədər insan tələfatını minimuma endirmək idi. Koronavirusun tamamilə aradan qaldırılması isə yalnız kütləvi peyvəndolunma yolu ilə baş tuta bilər: “COVID-19 pandemiyası bütün dünya üçün çox böyük sınaq idi. Daha doğrusu, bu sınaq hələ də davam edir. Azərbaycan çox az ölkələrdəndir ki, bu sınaqdan da minimal itkilərlə çıxmaqdadır. Məlum olduğu kimi, ölkə Prezidenti İlham Əliyevin göstərişi əsasında Nazirlər Kabinetinin Sərəncamı ilə 2020-ci il 30 yanvar tarixində “Azərbaycan Respublikasında yeni koronavirus xəstəliyinin yayılmasının qarşısının alınmasına dair Fəaliyyət Planı” təsdiq edildi, 2020-ci il 27 fevral tarixində koronavirus xəstəliyinin Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması, profilaktik və təxirəsalınmaz tədbirlərin operativ həyata keçirilməsi məqsədilə Nazirlər Kabinetinin yanında aidiyyəti dövlət orqanlarının və qurumlarının rəhbər şəxslərindən ibarət Operativ Qərargah yaradıldı. Həyata keçirilən bütün bu tədbirlər tezliklə öz müsbət təsirini göstərdi. Möhtərəm dövlət başçımız 2020-ci ilin aprel ayında nazirlərin iştirakı ilə keçirdiyi iclasda söyləmişdir: “Bizim üçün prioritet məsələ, - mən bunu qeyd etmişəm, bir daha demək istəyirəm, - insanların sağlamlığıdır, insanların həyatıdır və insanların sosial müdafiəsidir”.

Bu aydın hədəflər nəticəsində Azərbaycan səhiyyə sistemi tez bir zamanda COVID-19-la mübarizəyə səfərbər edildi və pandemiya səbəbindən işsiz qalan əhalinin sosial müdafiəsi gücləndirildi. Uzaqgörən və çevik qərarlar Azərbaycanın dünyada vaksinasiya prosesinə başlayan ölkələr sırasında ilk cərgədə qərarlaşmasına səbəb oldu. Lakin az öncə də dediyim kimi, bütün bu tədbirlər yalnız xəstəliyə qarşı effektiv vaksin tapılana qədər ölkə daxilində insanlarımızın həyat və sağlamlıqlarını maksimum qorumaq, insan tələfatını və iqtisadi ziyanı minimuma endirmək məqsədilə həyata keçirilirdi. Və bu məqsədlərə yüksək səviyyədə nail olundu. Amma əgər söhbət pandemiyanın, ümumiyyətlə, həyatımızdan çıxmağından gedirsə, bu zaman görülən bütün profilaktik qabaqlayıcı tədbirlər belə qətiyyən kifayət etmir. O cümlədən sağlam qidalanmaq, idmanla məşğul olmaq və sağlamlıq müayinələrindən keçmək kimi fərdi şəkildə həyata keçirilən tədbirlər də insanların koronavirusa yoluxmayacaqlarına zəmanət vermir. Yalnız peyvənd immun sistemimizi virusla effektiv mübarizə aparmağa hazır edir. Məhz bu səbəbdən də Nazirlər Kabinetinin 2021-ci il 16 yanvar tarixli Sərəncamı ilə “Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası” qəbul olunub. Xüsusi olaraq qeyd etmək lazımdır ki, ölkə Prezidenti İlham Əliyevin böyük uzaqgörənliklə ölkəmizi vaxtında daxil etdiyi vaksinasiya platformaları öz bəhrəsini verib. Məhz bu addımın nəticəsidir ki, bu gün dünyada peyvənd preparatlarının defisiti yaşandığı halda belə, ölkəmizdə artıq əhalinin 4 növ vaksin seçimi var ki, onların da hər biri effektiv və təhlükəsizdir”.

**Həmçinin Səttar Möhbalıyev müxtəlif yoluxucu xəstəliklərlə mübarizədə kütləvi vaksinasiyanın yeni bir üsul olmadığını da qeyd edərək cəmiyyətimizin, eləcə də bütün bəşəriyyətin normal həyat tərzinə qayıda bilməsi üçün bunun yeganə yol olduğunu deyib: “Əslində, bu gün COVID-19-a qarşı kütləvi vaksinasiyanın bir mövzu kimi müzakirə olunması zənnimcə, heç bir məntiqi əsasa dayanmır. Məsələ bundadır ki, peyvənd heç də yeni bir müalicə üsulu deyil. İnsanlıq əsrlər boyu taun, vəba, yatalaq və digər bu kimi qorxulu xəstəliklərin epidemiyasına mütəmadi olaraq məruz qalıb. Bu da məlumdur ki, yoluxucu xəstəliklərin hər belə həmləsi minlərlə, on minlərlə insanın həyatına son qoyub. Yalnız son yüz ildə ayrı-ayrı ölkələrdə insanların kütləvi peyvənd olunmaları üsulu tətbiq edilməyə başladıqdan sonra bəşəriyyət bir çox qorxunc yoluxucu xəstəliklərdən tam qurtulub. Bir misal çəkək. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə hələ ötən əsrin 60-cı illərində qızılca xəstəliyinə qarşı peyvənd icad olunana qədər hər il bu xəstəlikdən təxminən 2,6 milyon insan ölürdü. 2000-2017-ci illər ərzində qızılca xəstəliyi ilə bağlı ölümlərin sayı 80 faiz azalıb. Təbii ki, belə faktlardan olduqca çox sayda göstərmək olar. Bu gün də bəşəriyyət növbəti belə bir ağır sınaqla üz-üzədir. Və əgər dünya alimləri COVID-19-a qarşı vaksin preparatlarını nəhayət ki, yarada biliblərsə, o zaman bu, bəşəriyyətin bir xilas olma şansıdır. Vaksinasiya yenidən sağlam və normal həyata dönüş deməkdir. Vaksinasiya iqtisadiyyatın, təhsilin, mədəniyyətin, turizmin, idmanın, beynəlxalq əlaqələrin və ümumiyyətlə bütün sahələrin yenidən dirçəlişi deməkdir. Ən əsası isə, vaksinasiya uşaqlarımızın sağlam gələcəyinin yeganə təminatıdır. Buna görə də mən bir daha hər kəsi bu məsələdə son dərəcə məsuliyyətli və aktiv olmağa, bütün çətin dönəmlərdə olduğu kimi, birlik və həmrəylik nümayiş etdirməyə çağırıram”.**

# Dövlət İdarələri və İctimai Xidmət İşçilərinin Həmkarlar İttifaqında



**İyunun 22-də keçirilmiş Yeni Azərbaycan Partiyası Həmkarlar İttifaqı Komitəsinin növbədənkənar hesabat-seçki yığıncağında təşkilati məsələyə baxılıb. HİK sədri Hüseyn Paşayev başqa işə keçməsi ilə əlaqədar işdən azad edilib.**

Bu vəzifəyə YAP-ın Mərkəzi Aparatının Maliyyə-təsərrüfat şöbəsinin müdir müavini Qara Qarakişiyev seçilib.

**Tədbirdə YAP sədrinin müavini, Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov, Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Hikmət Osmanov və başqaları çıxış ediblər.**

***

**Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Hikmət Osmanov “Spartak” İdman Cəmiyyətinin yetirməsi Fərid Baxışlını Bolqarıstanın Samokov şəhərində keçirilmiş yeniyetmə güləşçilərin Avropa çempionatında qızıl medal qazanması münasibətilə qəbul edib. Qəbulda çıxış edən H.Osmanov bildirib ki, bu gün ölkəmizdə bütün sahələrdə olduğu kimi, idman sahəsində də böyük uğurlarımız var. İdmanın inkişafına dövlətimiz tərəfindən yüksək qayğı göstərilir. Təkcə paytaxtda deyil, regionlarda da idmanla məşğul olmaq üçün hər cür şərait yaradılıb.**



Hikmət müəllim deyib ki, təsisçilərindən biri olduğumuz “Spartak” İdman Cəmiyyəti də idman sahəsində əldə olunan uğurlara öz töhfəsini verir. Bir neçə gün əvvəl cəmiyyətin yetirməsi Fərid Baxışlının Bolqarıstanın Samokov şəhərində yeniyetmə güləşçilərin Avropa çempionatında qazandığı qızıl medal bu töhfələrin növbəti nümunəsidir.

Xatırladaq ki, 55 kq. çəki dərəcəsində yunan-Roma güləşində mübarizəyə qoşulmuş Fərid Baxışlı ilk görüşlərdə estoniyalı, alman və rusiyalı güləşçilərə qalib gələrək adını yarımfinala yazdırıb. Yarımfinalda çətin rəqib olan Belarus təmsilçisini də məğlubiyyətə uğratdıqdan sonra həlledici final görüşündə erməni güləşçi ilə qarşılaşıb və idman arenasının səmasında Azərbaycanın müqəddəs bayrağını dalğalandırmağa nail olub.

**Görüşdə Azərbaycan Həmkarlar İttifaqları İdman Təşkilatları İctimai Birliyinin sədri Nadir Əliyev də iştirak edirdi.**

***

**23 iyun Dövlət Qulluqçularının Peşə Bayramı və Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Respublika Komitəsinin yaranması günü münasibətilə Gəncə Şəhər Komitəsində tədbirlər keçirilmişdir. İlk təşkilatların fəal üzvlərinə sahə Hİ Respublika Komitəsinin hədiyyələri təqdim olunmuşdur.**

***

**Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin Rəyasət Heyəti mayın 30-da “Silahlı Qüvvələrin Yaranması Günü” ilə əlaqədar hərbi hissə və müəssisələrdə çalışmış şəhidlərin ailələrinə, Qarabağ müharibəsi əlilləri və veteranlarına, aztəminatlı işçilərə COVID-19-a yoluxaraq xəstələnmiş və ya vəfat etmiş üzvlərə pulsuz ərzaq bağlaması paylanması barədə qərar qəbul etmişdi.**



Qərara uyğun olaraq BHİK əməkdaşları bu günlərdə Bərdə korpusuna getmiş, adıçəkilən kateqoriyadan olan insanlara 80 ədəd ərzaq qutusu paylamışlar.

# Layiqli Əmək üzrə yeni Ölkə Proqramında

## əks olunacaq prioritetlər müzakirə edilib



***Beynəlxalq Əmək Təşkilatının (BƏT) iştirakı ilə hazırlanan Layiqli Əmək üzrə yeni Ölkə Proqramında gənclərin layiqli məşğulluq imkanlarının genişləndirilməsinə, inklüziv əmək bazarının inkişafına yönələn birgə səylərin artırılması prioritetləri də əksini tapacaq.***

Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Anar Əliyev BƏT-in Şərqi Avropa və Mərkəzi Asiya ölkələri üzrə Ofisinin rəhbəri Olqa Kulayevə ilə videokonfrans formatında görüşdə bildirib.

**Görüşdə həmçinin Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının nümayəndələri də iştirak ediblər.**

A.Əliyev ümumilikdə yeni Ölkə Proqramında “2021-2025-ci illər üçün BMT və Azərbaycan arasında Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədi”nə uyğun prioritetlərin əhatə olunacağını deyib. Ötən dövrdə BƏT-lə sıx əməkdaşlıq gündəliyində əmək müfəttişliyi və məşğulluq xidmətlərinin potensialının gücləndirilməsi sahəsində birgə fəaliyyətin mühüm yer tutduğunu qeyd edib.

Nazir müavini bildirib ki, yeni Proqramda da bu sahələrdə, eləcə də “2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası”nın, özünüməşğulluq proqramının icrası, iş yerlərində şagirdlik institutunun formalaşdırılması, Əməyin Mühafizəsi Mərkəzinin potensialının gücləndirilməsi və s. sahələrdə əməkdaşlıq istiqamətlərinin yer alması nəzərdə tutulur. Eyni zamanda işğaldan azad olunmuş ərazilərimizdə aktiv əmək bazarı proqramlarının hazırlanması və həyata keçirilməsi, Beynəlxalq Əmək Standartlarının (Konvensiya və tövsiyələrin) ratifikasiyası və tətbiqi sahəsində BƏT-lə əməkdaşlığa xüsusi önəm veriləcək.

***Görüş zamanı Layiqli Əmək üzrə yeni Ölkə Proqramında əks olunacaq digər prioritetlər də müzakirə olunub.***

# Təhsil Tələbə Krediti Fonduna

## ümumi rəhbərliyi və nəzarəti Himayəçilik Şurası həyata keçirəcək

**Təhsil Nazirliyinin tabeliyində Təhsil Tələbə Krediti Fondunun fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün ictimai əsaslarla fəaliyyət göstərən 7 (yeddi) üzvdən ibarət Himayəçilik Şurası yaradılacaq.**

Bu barədə Prezident İlham Əliyevin “Təhsil Nazirliyinin tabeliyində Təhsil Tələbə Krediti Fondunun yaradılması və fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında” Fərmanında bildirilib.

Qeyd olunub ki, Təhsil Nazirliyinin (2 nəfər), Azərbaycan Respublikası Maliyyə Nazirliyinin (1 nəfər), Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (1 nəfər), Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin (1 nəfər), Azərbaycan Respublikası Mərkəzi Bankının (1 nəfər) və Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin (1 nəfər tələbə) nümayəndələrindən ibarət 7 (yeddi) üzvü olacaq.

**Şuranın üzvləri 3 il müddətinə təyin edilir və ictimai əsaslarla fəaliyyət göstərirlər. Onlar növbəti müddətə yenidən təyin edilə bilərlər. Şuranın üzvlərini təmsil etdikləri orqanın (qurumun) rəhbəri təyin və azad edir. Şuranın sədrini Təhsil Nazirliyinin Şurada təmsil edilən üzvləri arasından Azərbaycan Respublikasının təhsil naziri təyin edir. Şuranın üzvləri Fondun digər orqanlarında təmsil oluna bilməzlər. Fondun fəaliyyətinə cari rəhbərliyi 3 üzvdən - sədr və onun iki müavinindən ibarət İdarə Heyəti həyata keçirəcək. Eyni zamanda “Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi”ndə “Təhsil Tələbə Krediti” altsistemi yaradılacaq.**

# Bir qrup tibb işçisinin

## əməyi qiymətləndirildi



**17 iyun - Tibb İşçilərinin Peşə Bayramı Günü münasibətilə Azərbaycan Tibb Universitetində tədbir keçirilib. Tədbiri giriş sözü ilə ATU-nun rektoru, professor Gəray Gəraybəyli açıb.**

Bayramla əlaqədar təbriklərini çatdıran rektor xatırladıb ki, 1918-ci il iyunun 17-də Səhiyyə Nazirliyinin yaradılması haqda qərar qəbul olunub. Ulu öndər Heydər Əliyevin 2001-ci il 4 iyun tarixli sərəncamına əsasən, hər il iyunun 17-si ölkəmizdə Tibb İşçilərinin Peşə Bayramı Günü kimi qeyd olunur: “Hər il peşə bayramımızı müxtəlif formatlarda qeyd etməyə çalışmışıq. Amma keçən il həyatımızda, ümumiyyətlə tariximizdə qeyri-adi bir il oldu. Artıq ilyarıma yaxındır ki, davam edən COVID-19 pandemiyası istər ölkəmizdə, istərsə də dünyada həyatın hər bir sahəsinə ciddi təsir göstərib. O cümlədən də tədris prosesinə. Təsadüfi deyil ki, məhz həkimlər, tibb işçiləri bu ağır mübarizəyə ön cəbhədən qoşularaq böyük fədakarlıq göstəriblər. Və bu gün deyə bilərik ki, ölkəmiz bu çətin dövrdən az itkilərlə çıxmağı bacarıb, vaksinasiya prosesi baxımından regionda ön yerdədir”.

Gəray Gəraybəyli Ermənistanın hərbi təcavüzü nəticəsində 30 il işğalda olan torpaqlarımızın azad edildiyi 44 günlük Vətən müharibəsinə xüsusi toxunub, ATU-nun çoxlu sayda əməkdaşının bu şərəfli tarixdə imzası olduğunu vurğulayıb.

Rektor bildirib ki, bu gün həmçinin Səhiyyə Nazirliyinin kollegiyası keçirilib. O, səhiyyə naziri vəzifəsini icra edən Teymur Musayevin ATU-nun kollektivinə təbrik və salamlarını çatdırıb: “Teymur Musayev ATU-nun ölkədə istər tibb tədrisi, istərsə də öz klinikaları ilə vətəndaşların sağlamlığının keşiyində dayanması ilə səhiyyəmizin ümumi inkişafında böyük rol oynadığını vurğuladı, yeni-yeni uğurlar dilədi.

Bildiyiniz kimi, universitetimizin 90 illik yubileyi ötən ilə təsadüf etdi. Təəssüf hissi ilə qeyd edirəm ki, əvvəlcədən planlaşdırılan tədbirlərin məlum səbəblərdən yalnız kiçik bir hissəsini, özü də onlayn həyata keçirə bildik. Yubileyimiz münasibətilə ölkə rəhbərliyi tərəfindən 21 nəfər, Səhiyyə Nazirliyi tərəfindən isə 20 nəfər əməkdaşımız təltif olundu”.

**Sonra rektor G.Gəraybəylinin əmri ilə universitetin ictimai-siyasi həyatında fəal iştirak edən, o cümlədən pandemiya ilə mübarizədə və Vətən müharibəsində ön sıralarda olan bir qrup əməkdaşa Tibb İşçilərinin Peşə Bayramı Günü münasibətilə Fəxri Fərman və 300 manat məbləğində pul mükafatı təqdim olunub.**

# Ən yaxşılar fərqləndirildi



**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının İcraiyyə Komitəsinin və Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin Rəyasət Heyəti Azərbaycan Dövlət İqtisadiyyat Universitetinin 90 illiyi münasibətilə bu ali məktəbin bir qrup əməkdaşını "Həmkarlar ittifaqında xidmətlərə görə" medalı və Fəxri Fərmanla təltif etmişdir. Dünən Universitetdə mükafatların təqdimolunma mərasimi keçirilmişdir. Tədbirdə Universitetin prorektoru Şaiq Əsgərov və Respublika Komitəsinin sədr müavini Mirzə Cəfərzadə çıxış etmişlər.**

# Dahi şairin doğma şəhərində

**Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Qaradağ Rayon Komitəsi Nizami Gəncəvinin 880 illik yubileyini Gəncə şəhərində, dahi şairin adını daşıyan muzeydə qeyd etmişdir. Tədbirdə Rayon Komitəsinin sədri Zümrüd Rzayeva, 7 nömrəli Uşaq, Gənclər İdman Məktəbinin dərnək rəhbəri İlhamə Ağayeva, 253 nömrəli tam orta məktəbin müəllimi Nailə Cəlilova geniş mətnlə çıxış etmişlər. 274 nömrəli tam orta məktəbin müəllimi Müşviqə Baladdinqızı Nizaminin əsərlərindən parçalar oxumuşdur.**





# Diqqət və qayğıya görə təşəkkür

**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının Həmkarlar İttifaqı Komitəsi müəllim və tələbə heyətinin təhsilin yüksək səviyyədə tədrisi və mənimsənilməsi işində fəal iştirak edir. Bu istiqamətdə səmərəli tədbirlər həyata keçirir. HİK-in fəaliyyəti akademiyanın rəhbərliyi tərəfindən yüksək qiymətləndirilir.**

Həmkarlar ittifaqı komitəsinin sədri Yusif Quliyev deyib ki, bütün bunlara görə Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinə borcluyuq. Respublika Komitəsinin sədri Cəmilə xanım Səttarovanın tapşırığı, mən deyərdim, gündəlik qayğısı sayəsində mərkəz və ilk təşkilatlar arasında sıx, yaradıcı əməkdaşlıq mövcuddur. Cəmilə xanım bizimlə tez-tez əlaqə saxlayır, problemlərimizlə maraqlanır, şəxsi köməyini əsirgəmir.

***Bu münasibəti nəzərə alaraq akademiyanın HİK-i C.Səttarovanı "Tərifnamə" ilə təltif etmişdir. Cəmilə xanım bu təltifi böyük məmnuniyyətlə qəbul etmiş və akademiyanın həmkarlar ittifaqı komitəsinin əməkdaşlarına minnətdarlığını bildirmişdir.***

# "Mən burdan getsəm, şəhidlərimizin sayı artar"



**Polkovnik-leytenant Nail Rəfail oğlu Orucov 1978-ci il iyunun 11-də Astaranın Məscidməhəllə kəndində 10 uşaqlı ailədə anadan olub. Qapıcıməhəllə kənd orta məktəbini bitirdikdən sonra təhsilini Cəmşid Naxçıvanski adına Hərbi Liseydə davam etdirib. 1995-ci ildə Bakı Ali Ümumqoşun Komandirlər Məktəbinə daxil olub. Burada motoatıcı ixtisasına yiyələnib. Leytenant rütbəsi ilə Gədəbəydə "N" saylı hərbi hissədə xidmətə başlayıb. Komandirlik istedadını nəzərə alaraq qısa müddətdə ona bir-birindən yüksək vəzifələr etibar olunub. Sumqayıtda "N" saylı hərbi hissədə qərargah rəisi, Füzulidəki hərbi hissədə motoatıcı tabor komandiri vəzifələrində çalışıb.**

Nail 2014-cü ildə artıq polkovnik-leytenant rütbəsinə yüksəlir. 2015-ci ildə hərbi geyim formasını daşımaq hüququ ilə ehtiyata buraxılır. Ancaq çox keçmir ki, Aprel döyüşləri başlayır. Yenidən orduya qayıtmaq istəyir. Lakin müharibə 4 gün çəkdiyinə görə buna imkan olmur. Aprel döyüşlərində yaxın dostlarının, xüsusilə də Raquf Orucovun şəhid olması ona təsir edir. 2020-ci il Tovuz döyüşləri zamanı Polad Həşimov şəhid olduqdan sonra isə Nail artıq qərarını verir: o, mütləq orduya qayıtmalıdır. Oğlu Ruslan deyir ki, atasına çağırış gələndə hərbi geyim formasını dolabdan sevinclə çıxardı.

Bizi bir daha hərbi formada qucaqladı. Hərbi qaydada görüşüb ayrıldı.

Polkovnik-leytenant N.Orucov sentyabrın 30-dan Ağcabədidə təlimlərə rəhbərlik edir. Oktyabrın 6-dan tabor komandiri kimi əks-hücum əməliyyatlarına qoşulur. Füzuli, Cəbrayıl və Qubadlı istiqamətində düşmənə ağır zərbələr endirərək onları geri oturdur.

Nail hər zaman əsgərlərinə qarşı diqqətli və qayğıkeş olub. Əsgərindən biri belə xatırlayır: "Döyüş zamanı hər kəsə öz balası kimi yanaşırdı. Hətta ailəsi ilə danışarkən də "mənim orada 3 övladım varsa, burada 300 övladım var", - deyirdi." Həyat yoldaşına son sözlərində isə uşaqlarının təhsilinə diqqət etməsini tapşırır.

**Onun komandanlığı altında Qubadlı rayonu ərazisində Azərbaycan və Ermənistan sərhədi tam nəzarətə alınır və mövqe qurulur. Nail qızğın döyüşlər gedən zaman ayağından qəlpə yarası alır. Ancaq o, hospitala getməkdən imtina edir. "Mən bu ərazidə nə etmək lazımdır bilirəm. Getsəm, şəhidimiz çox olar" deyərək elə yaralı vəziyyətdə də döyüşməyə davam edir.**

Oktyabrın 31-də düşmən qüvvələri azad olunmuş Qubadlı rayonunda təxribat törədərək artilleriya atəşi ilə həmin əraziyə zərbələr endirir. Bu zaman polkovnik-leytenant qəhrəmancasına şəhid olur.

N.Orucov böyük izdihamla Astarada dəfn edilir. Əsgərləri, erməni təxribatının qarşısı alındıqdan sonra, onun şəhid olduğu yerə Azərbaycan bayrağı sancırlar.

**Nail Rəfail oğlu Orucov "Azərbaycan Silahlı Qüvvəərinin 10 illiyi", "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi", "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi", "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalları, "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalı, "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli medalı, "Qüsursuz xidmətə görə" 1-ci dərəcəli medalı, "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı, "Azərbaycan Silahlı Qüvvələri Veteranı" medalı, ölümündən sonra isə "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.**

*Aliyə SƏMƏDOVA*

## Tərəfdaşlarımız

# Özünü sıravi işçi sayan rəhbər



**"Azəralüminium" Məhdud Məsuliyyətli Cəmiyyətin Gəncə Alüminium Kompleksinin İstehsalat üzrə rəhbəri Cəmil Səfərovla tərəfdaş kimi fəaliyyətimiz 3 ildir davam edir.**

3 il bir o qədər uzun müddət olmasa da, artıq müəssisə rəhbərliyi və həmkarlar ittifaqı komitəsi arasında əməkdaşlığı yüksək səviyyəyə qaldıra bilmişik.

Əldə olunan bu səviyyəyə görə komitə sədri kimi çox vaxt məhz mənim ünvanıma xoş sözlər söylənilir. Təvazökarlıqdan kənar olsa da deyim ki, bu tərifləri qismən qəbul etmək olar. Amma əsl həqiqətdə isə tərəfdaşlarımızla sıx əməkdaşlıq əlaqələrinin qurulmasında istehsalat rəhbəri Cəmil müəllimin payı daha çoxdur. Bir qədər irəli gedib deyim ki, komitəmizin əməkdaşları, fəalları Cəmil müəllimə artıq tərəfdaş kimi yox, kolleqa kimi baxırlar. Çünki o, kollektivin əmək, sosial problemlərini birinci dərəcəli məsələ sayır. Kollektiv müqavilənin layihəsini hələ imzalamamışdan əvvəl bizimlə birlikdə şəxsən özü nəzərdən keçirir.

Bəzən hansısa öhdəliyin üzərində xeyli düşünür və qəfildən hansısa şöbə müdirinə zəng vurub çağırır. "Bu maddədə işçilərə daha çox güzəştlər verilməsi mümkündürmü?", - deyə soruşur. Əgər mümkünsə, məndən xahiş edir ki, əlavə güzəştlər kollektiv müqavilədə əksini tapsın.

**İclaslarımızda iştirak etməyi sevir. Səbəbini də onunla izah edir ki, işçilər məhz həmkarlar ittifaqlarının tədbirlərində real vəziyyəti söyləyirlər. Problemlərini, təkliflərini diqqətə çatdırıb müzakirə edirlər. Bu da bizə işimizi gələcəkdə necə quracağımıza kömək göstərir.**

2019-cu il üçün AHİK-in keçirdiyi "Sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması üzrə ilin ən yaxşı müəssisəsi (təşkilatı)" Respublika baxış-müsabiqəsinə bizim müəssisə də qoşulmuşdu. Bu müsabiqədə kollektivimizin qalib gəlməsinə daha çox maraq göstərən bəlkə də Cəmil müəllim idi. Müsabiqənin şərtlərinin yerinə yetirilməsi prosesini daimi nəzarətdə saxlayırdı. Bizdən xahiş edirdi ki, nəzarəti bir gün də olsa belə zəiflətməyək. Yoxlamalarımızın nəticələrini gözdən keçirir, müvafiq tapşırıqlar verirdi. İstehsalatın adını qaliblər sırasında görəndə sevinci yerə-göyə sığmadı.

C.Səfərovun həmkarlar ittifaqı ilə belə isti münasibətinin, özünü müəssisədə rəhbərdən çox, sıravi istehsalatçı kimi aparmasının səbəbi nədir? Həyat yolu ilə yaxından tanış olandan sonra bildim ki, o, əmək fəaliyyətinə istehsalatın, necə dəyərlər, ən aşağı qatlarından başlayıb. Hansı peşənin adamının hansı çətinliklərlə üzləşdiyini öz timsalında yaxşı bilir. Bundan başqa, müxtəlif sahələrdə çalışıb. Müxtəlif xarakterli insanlarla ünsiyyətdə olub. Elmi yaradıcılıqla məşğul olub, ali məktəblərdə dərs deyib və deyir. Öyrənmək və öyrətmək vərdişlərinə yiyələnib. Texniki elmlər namizədidir. Dörd monoqrafiya, 12 dərslik və dərs vəsaitinin, 6 ixtiranın müəllifidir. Dünyanın 12 ölkəsinin nüfuzlu mətbu orqanında elmi məqalələri dərc olunmuşdur. Əlbəttə, belə insanın başçılıq etdiyi rəhbərliklə tərəfdaş olmaq təkcə həmkarlar ittifaqının deyil, bütövlükdə müəssisə kollektivinin maraqlarının təmin olunması deməkdir.

**Yeri gəlmişkən, bir neçə gün əvvəl C.Səfərov Türk Dünyası Araşdırmaları Uluslararası Elmlər Akademiyasının Altın Yıldız medalı, Türk Dünyasının Fəxri ziyalısı və Fəxri professor Diplomuna layiq görülüb.**

Bu münasibətlə Cəmil müəllimi komitəmiz adından təbrik edirəm.

***Aslan ƏLİYEV,***
***"Azəralüminium"***
***MMC-nin HİK sədri***

# Müsabiqə qalibləri mükafatlandırıldı



***Qəzetimizin ötən saylarında Cəmşid Naxçıvanski adına Hərbi Liseydə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) tərəfindən təşkil edilmiş "Azərbaycan əsgəri" bədii-qiraət müsabiqəsi, Azərbaycanın Milli Qəhrəmanları Mübariz İbrahimov və Elşad Əhədovun xatirəsinə həsr edilmiş hərbi idman yarışları və şahmat yarışı, "Qarabağ Azərbaycandır!" və "Bir kərə yüksələn bayraq bir daha enməz!" mövzusunda inşa-yazı müsabiqələri haqqında geniş məlumat vermişik. Bu müsabiqələrdə 500-dən çox kursant öz istedadlarını nümayiş etdirmiş və məlum olmuşdur ki, liseydə yaradıcılıq qabiliyyətinə malik istedadlı gənclər çoxdur.***

2020-2021-ci tədris ilinin yekunlarına həsr olunmuş toplantıda yuxarıda adları çəkilmiş müsabiqə qaliblərinin mükafatlandırılması mərasimi keçirilib. Tədbirdə Müdafiə Nazirliyinin nümayəndələri, liseyin şəxsi heyəti, müəllimlər, təhsil ocağını müxtəlif illərdə bitirmiş məzunlar, valideynlər və ictimaiyyət nümayəndələri iştirak edib. Əvvəlcə ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olanların xatirəsi birdəqiqəlik sükutla yad edilib. Sonra liseyin hərbi orkestrinin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

Hərbi orkestrin müşayiəti ilə şəxsi heyət Azərbaycanın dövlət himnini ifa etdikdən sonra, liseyin Döyüş bayrağı təntənəli surətdə sıra meydanına gətirilib.

**Hərbi liseyin rəisi, general-mayor Bəkir Orucov tədbir iştirakçılarını salamlayaraq kursantları liseyin yaradılmasının 50 illik yubileyi və 49-cu buraxılışı münasibətilə təbrik edib, müəllimlərə, ictimai işlərdə fəal iştirak edən kursantlara döş nişanları və fəxri fərmanlar təqdim olunub. O, ölkə Prezidentinin diqqət və qayğısı nəticəsində Azərbaycan Ordusunun sürətlə inkişaf etdiyini və daha da gücləndiyini deyib. Bildirib ki, 44 günlük Vətən müharibəsi ərzində qazanılan Qələbə bunun bariz sübutudur və bu gün işğaldan azad etdiyimiz torpaqlarda üçrəngli bayrağımız qürurla dalğalanır.**

Bu yazının müəllifi çıxış edərək şəxsən AHİK sədri, millət vəkili Səttar Möhbalıyevin adından tədris ilinin başa çatması, qarşıdan gələn Silahlı Qüvvələr Günü münasibətilə hamını təbrik edib, onlara hərbi işlərində uğurlar arzulayıb. Qeyd edib ki, bu gün bizim Ordumuz həqiqətən çox güclüdür, sabah isə daha əzəmətli olacaqdır. Siz isə Milli Ordumuzun gələcəyisiniz. Milli Ordunun sıralarını artırmaq, onu möhkəmləndirmək, lazım gələrsə, Vətənin mənafeyi uğrunda mübarizə aparmaq sizin üzərinizə düşür. Bu gün sıralarınızda Vətənin adını hər şeydən uca tutan cəsur, istedadlı gənclər yetişir. Gələcəkdə onların böyük nailiyyətlər əldə edəcəklərinə və ordumuzun qüdrətlənməsinə töhfə verəcəklərinə inanırıq.

Mərasimdə digər çıxışlar bitdikdən sonra şəxsi heyət qarşısında bütün müsabiqə qaliblərinə AHİK-in diplomları və qiymətli hədiyyələri təqdim edilib. Üzərində Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun şəkli əks etdirilmiş Keçici Kubok və AHİK-in Fəxri Diplomu idman yarışlarında ən yüksək xal toplamış 6-cı bölüyə təqdim olunub.

**Gənclərin hərbi-vətənpərvərlik tərbiyəsi istiqamətində aparılan işləri, müsabiqə və yarışların təşkilində xüsusi fəaliyyətlərini nəzərə alaraq hərbi liseyin rəisi, general-mayor Bəkir Orucov başda olmaqla, lisey rəisinin tədris üzrə müavini, polkovnik Saday Balayev, mənəvi-psixoloji təminat üzrə müavini Müslüm Nəsirov, maddi-texniki təminat üzrə müavini, polkovnik Nazim Abbasov ana dili və ədəbiyyat fənn bölməsinin rəisi, polkovnik Ceyran Abbasova, fiziki hazırlıq fənn bölməsinin rəisi Rəşad Kazımov, fiziki hazırlıq müəllimləri Camal Babayev (ən yaxşı hakim) və Ağaverdi Məmmədov AHİK-in Fəxri diplomları ilə təltif olunublar.**

Sonda hərbi liseyin rəisi, general-mayor Bəkir Orucov gənclərin estetik və fiziki tərbiyəsində böyük rol oynayan, gələcək zabitlərin düşüncə qabiliyyətlərinin inkişafında və vətənpərvərlik hisslərinin artırılmasında əhəmiyyət daşıyan bu cür tədbirlərin təşkil edilməsinə, vətənpərvər gənclərə göstərilən diqqət və qayğıya görə AHİK-in sədri, millət vəkili Səttar Möhbalıyevə dərin minnətdarlığını bildirib. Və arzu edib ki, bu gözəl hamilik missiyası gələcəkdə də davam etsin.

**Tədbir liseyin şəxsi heyətinin marşı ilə başa çatıb.**

***Xoşqədəm BAĞIROVA,***
***AHİK-in Mədəni-məişət problemləri üzrə analitik tədqiqat şöbəsinin mütəxəssisi***

# ülfət

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ QƏZETİ

WWW.ULFET-AZ.COM

Son səhifə

CÜMƏ AXŞAMI, 24 İYUN 2021-ci il / № 23 (1241)




## Nekroloq



**Təhsil İşçiləri Həmkarlar İttifaqı Naxçıvan Muxtar Respublika Komitəsinin sədri Səbuhi Hüseynov vəfat edib.**

Səbuhi Hüseynov 1961-ci il iyulun 25-də Naxçıvan şəhərində anadan olub. 1968-1978-ci illərdə Naxçıvan şəhəri E.Sultanov adına 7 nömrəli orta məktəbdə təhsil alıb. 1980-1985-ci illərdə Y.Məmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutunun ( indiki Naxçıvan Dövlət Universiteti) "Fizika-riyaziyyat" fakültəsini müvəffəqiyyətlə bitirib. Uzun müddət bir sıra təhsil ocaqlarında çalışıb.

**2010-cu ilin dekabr ayından ömrünün son gününə qədər Təhsil İşçiləri Həmkarlar İttifaqı Naxçıvan Muxtar Respublika Komitəsinin sədri vəzifəsində işləyib.**

İşlədiyi müddətdə ittifaq üzvlərinin sosial-iqtisadi və hüquqi mənafelərinin qorunmasında fəal iştirak edib. Dəfələrlə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının Məclisinə üzv seçilib.

Səbuhi Hüseynovun xidmətləri dövlətimiz və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası tərəfindən yüksək qiymətləndirilib. O, Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Əməkdar müəllim" Fəxri adına layiq görülüb, AHİK-in yubiley döş nişanları ilə təltif olunub.

**Onun əziz xatirəsi qəlbimizdə əbədi yaşayacaq!**

**Anar İBRAHİMOV,**
**Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri**

# İsti havada işlər hansı halda dayandırıla bilər?

**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının Hüquq şöbəsinin müdiri Leyla Acalova havanın temperaturunun yüksək olduğu halda işçilərin iş prosesinin necə tənzimlənməsi ilə bağlı "Ülfət" qəzetinə müsahibə verib. Müsahibəni sizə təqdim edirik:**

**-Leyla xanım, yay mövsümündə havanın temperaturu neçə dərəcə olduqda iş prosesi dayandırılır? Və bu, hansı iş yerlərinə aiddir?**

-Əmək Məcəlləsinə və ona 2 saylı "Əlavə"yə əsasən, havanın temperaturu +41 dərəcə selsidən (2009-cu ilədək 45 dərəcə idi) çox olan hava şəraitində açıq havada və sərinləşdirici qurğular olmayan örtülü binalarda, otaqlarda və digər iş yerlərində bütün növ işlərin görülməsi dayandırılmalı və işçilərə sərinləmək üçün imkan yaradılmaqla fasilələr verilməlidir.

**-İş prosesinin dayandırılması, yaxud fasilələrin verilməsi iş vaxtına əlavə olunurmu və əməkhaqqı necə hesablanır?**

-Fasilələr iş vaxtına daxil edilir və bu fasilələr zamanı əməkhaqqı işçilərin tarif maaşına görə ödənilir.

İş dayandırıldıqda isə, boşdayanma vaxtının haqqı işçinin təqsiri üzündən baş verməyən boşdayanma kimi Əmək Məcəlləsinin 169-cu maddəsinə uyğun olaraq tarif maaşının üçdəiki hissəsindən az olmayaraq ödənilir.

**-Ümumiyyətlə, bu kimi hallarda həmkarlar ittifaqının rolu nədən ibarətdir?**

-İstehsal fasiləsiz xarakter daşıdıqda müəssisədə işi dayandırmaq mümkün olmur. Bu zaman həmkarlar ittifaqının razılığı ilə işəgötürən tərəfindən bir-birini əvəz edən növbələr müəyyən edilməlidir.

İşlərin dayandırılması, işçilərə fasilələr verilməsi, fasilələrin sayı və müddəti işəgötürənlə həmkarlar ittifaqı təşkilatının birgə qərarı ilə müəyyən edilir.

**Məcəllənin 222-ci maddəsinə əsasən, ilin isti vaxtlarında açıq havada işləyənlərin fasilələr zamanı istirahət etmələri üçün işəgötürən tərəfindən otaqlar hazırlanmalıdır.**

Əməyin mühafizəsinin təmin edilməsi məqsədilə Əmək Məcəlləsinin 234-cü maddəsində nəzərdə tutulmuşdur ki, isti hava şəraitində iş dayandırıldıqda işçi başqa işə keçirilə bilər. Bu cür hallarda əgər işçi tutduğu vəzifədən aşağımaaşlı işə keçirilərsə, bu zaman onun əvvəlki vəzifəsi (peşəsi) üzrə əməkhaqqı saxlanılmalıdır.

**-Əmək müqaviləsində əmək şəraiti ilə bağlı hər hansı bir məlumat əks olunub?**

-Əmək müqaviləsi bağlanan zaman müqavilədə mütləq işəgötürən tərəfindən işçinin sağlam və təhlükəsiz əmək şəraitində işləməsinə təminat verilməsi barədə öhdəliyi göstərilməlidir. Məhz ona görə də Əmək Məcəlləsinə 1-ci əlavə olan "Əmək müqaviləsinin (kontraktın) nümunəvi forması"nda əmək şəraitinin şərtlərinə xüsusi paraqraf ayrılmışdır. Həmin paraqrafın 4.9. bəndində qeyd edilir ki, işçinin sağlamlığının, əməyin mühafizəsinin təmin olunması üçün sanitariya və gigiyena normalarına cavab verən iş yeri və iş şəraiti yaradılır. Buna əməl etməyən işəgötürənlər İnzibati Xətalar Məcəlləsinin tələblərinə uyğun olaraq inzibati məsuliyyətə cəlb edilirlər.



Əmək Məcəlləsinin 209-cu maddəsinə əsasən, dövlət hakimiyyəti orqanları, mülkiyyətçilər, işəgötürənlər və işçilər tərəfindən əməyin mühafizəsinin təmin olunması 15 prinsip əsasında həyata keçirilir. Bunlardan biri "işçinin həyatının və sağlamlığının müəssisənin istehsal fəaliyyətinin nəticələrindən üstün tutulması" prinsipidir.

**-Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası tərəfindən hansı tədbirlər həyata keçirilir?**

**-Öz üzvlərinin əmək, sosial-iqtisadi hüquqlarını və qanuni mənafelərini müdafiə edən bir təşkilat kimi, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası tərəfindən bu prinsip əsas götürələrək işçilərin həyat və sağlamlığı üçün təhlükə törədə bilən işlərin dayandırılması, fasilələrin sayının və müddətinin müəyyən edilib verilməsinə nail olmaq üçün tədbirlər görülməsi və buna mane olan işəgötürənlər barəsində Dövlət Əmək Müfəttişliyi Xidmətinə məlumat verilməsi üçün sahə HİRK-lərə hər il xüsusi tapşırıq verilir.**

**Müsahibəni apardı:**
**Azər MUSTAFAYEV**














BAKI SƏYAHƏTLƏR VƏ EKSKURSİYA BÜROSU

Azərbaycanda öz peşəkar heyəti ilə yüksək səviyyədə daxili və xarici turizm, aviabiletlərin alınması, ölkədaxili gəzinti turları, ölkə xaricində hotellərin rezervasiyası, viza dəstəyi, özəl və qrup transferləri, səhiyyə turizmi, səyahət sığortası, kruiz turlar, avtomobil, helikopter, özəl yaxta kirayəsi və digər xidmətlər göstərməkdədir.

**İstirahət mərkəzlərin qiymətləri:**
**"Qayıbulaq" Qusar - 35 AZN**
**"Əlincə" Nabran – 45 AZN**
**"Kəpəz Sanatoriyası" Nabran - 45 AZN**
**"Duyma" Qəbələ - 45 AZN**
**"Qala" Lerik - 47 AZN**
**"Eden Park" Qax - 48 AZN**
**"Palma" Nabran – 50 AZN**
**"River Side" Mingəçevir - 55 AZN**
**Ünvan: M.Ə. Sabir küçəsi 7, İçəri Şəhər**
**Əlaqə: (012) 492-11-34, (012) 492-07-18**


*Beynəlxalq*

# Dəmiryolçular tətil edirlər



**Fransa Milli Dəmiryolları Cəmiyyətinin Paris şəhər dəmiryol xətlərinin əməkdaşları iyunun 21-də böyük tətilə başlayıb.**

Verilən məlumata görə, şəhərin elektrik qatarlarının üç xəttində qatarların yarısı, digər altı xəttində isə yalnız üçdə biri işləyir.

Dəmiryolu əməkdaşları və həmkarlar ittifaqları Fransanın hakimiyyət orqanlarının Avropa Komissiyasının tələbi ilə sektoru rəqabətə açmasından narazıdır. Onlar əsasən əmək şəraiti və iş yükünün daim artması ilə bağlı bir sıra əlavə tələblər irəli sürür.

**Tətil Fransanın təhsil sistemi üçün əhəmiyyətli vaxtda - bakalavr dərəcəsinə imtahanların başladığı gün keçirilir. Fransa Milli Dəmiryolları Cəmiyyəti bu səbəbdən məktəblilərin imtahanlara gecikə biləcəyi barədə rayon təhsil şöbələrini əvvəlcədən xəbərdar edib və onları buna anlayışla yanaşmağa çağırıb.**




**Məzuniyyət hüququm pozulur. 2 ildir ki, işəgötürən məni məzuniyyətə buraxmır. Buna görə o, məsuliyyət daşıyırmı?**

**Gülər NAĞIYEVA, Gəncə şəhəri.**

- Əmək Məcəlləsinin 110-cu maddəsinə əsasən, işçilər vəzifəsindən (peşəsindən) əmək şəraitindən və əmək müqaviləsinin müddətindən asılı olmayaraq, həmin Məcəllə ilə müəyyən edilmiş məzuniyyətlərdən istifadə etmək hüququna malikdirlər.

İşəgötürən tərəfindən Əmək Məcəlləsinə uyğun olaraq işçiyə əmək məzuniyyətinin verilməməsi qadağandır.

Məcəllənin 135-ci maddəsinə əsasən, işçi müvafiq iş ilində əmək məzuniyyətindən istənilən səbəbdən istifadə etmədikdə, ona həmin iş ili (illəri) üçün istifadə edilməmiş əmək məzuniyyətinə görə müəyyən edilmiş qayda və məbləğdə kompensasiya ödənilir.

Əgər 2 iş ili ərzində əmək məzuniyyətindən istifadə etməmisinizsə, onda işəgötürən Sizə 135-ci maddədə göstərildiyi kimi, həmin illər üçün kompensasiya ödəməlidir.

Məzuniyyət hüququnun pozulması əmək qanunvericiliyinin pozulması hesab edilir və bu, inzibati xəta sayılır.

İnzibati Xətalar Məcəlləsinin 192.5-ci maddəsinə görə, işçinin məzuniyyət hüquqlarının pozulmasına, işçiyə əmək məzuniyyətinin verilməməsinə, habelə istifadə edilməmiş əmək məzuniyyətinə görə müəyyən edilmiş kompensasiyanın ödənilməməsinə görə-

vəzifəli şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə cərimə edilir.

**Bu yaxınlarda 5-ci uşağı dünyaya gətirdim. Müavinət almaq üçün müraciət etdim. Dedilər ki, mənə 5 uşağa görə pul düşmür. Mən nə etməliyəm?**

**Sərfinaz ƏLİYEVA, Lerik rayonu.**

- Doğrudur, çoxuşaqlı qadınlara dövlət tərəfindən müavinət ödənilir. "Sosial müavinətlər haqqında" qanuna əsasən, həmin Qanunla müəyyən edilmiş qaydada ayrı-ayrı kateqoriyalı şəxslərə sosial yardım göstərilməsi məqsədilə aylıq və ya birdəfəlik pul vəsaiti ödənilir.

Lakin bu vəsait beşdən çox uşağı olan qadınlara ödənilir. Həm də bu, aylıq müavinətdir.

Qanunun 7.0.10-3-cü maddəsinə əsasən, beşdən çox uşağı olan qadınlara müavinət - beşdən çox uşağı doğub tərbiyə edən qadınlara, uşaqların sağ olması şərtilə, bu hüququn yaranmasına səbəb olmuş uşağı bir yaşına çatdıqda sosial müavinət verilir.

Müraciətinizlə bağlı Sizə sosial müavinət verilməməsi düzgündür. Çünki uşaqların sayı buna imkan vermiq. Uşaqların sayı 5-dən çox olmalıdır və 6-cı doğulan uşağın bir yaşı tamam olandan sonra bu müavinət üçün müraciət etmək lazımdır.

**Hansı səbəblər məişət zorakılığının araşdırılması üçün əsasdır.**

**Şamil ƏSGƏROV, Masallı rayonu.**

- Məişət zorakılığı barədə şikayətlərlər "Məişət zorakılığının qarşısının alınması haqqında" qanunun 6-cı maddəsinə əsasən araşdırılır. Belə ki, məişət zorakılığı üzrə araşdırmanın aparılması üçün aşağıdakılar səbəb ola bilər:

- zərərçəkmiş şəxsin özünün və ya onun ailə üzvlərinin şikayəti;

- fiziki və ya hüquqi şəxslərdən, dövlət və yerli özünüidarə orqanlarından, o cümlədən təhsil və ya səhiyyə müəssisələrindən, qeyri-hökumət təşkilatlarından, kütləvi informasiya vasitələrindən daxil olmuş müraciətlər.

- dövlət və yerli özünüidarə orqanlarının vəzifəli şəxsləri, yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar, qəyyumluq və himayə orqanları, təhsil və səhiyyə müəssisələri, yardım mərkəzləri xidməti vəzifələrinin həyata keçirilməsi zamanı məişət zorakılığının törədilməsi barədə aldığı şikayətləri bu Qanunun 5-ci maddəsində müəyyən edilmiş müvafiq icra hakimiyyəti orqanlarına təqdim edirlər.

- məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda, həmin şikayət yalnız zərərçəkmiş şəxsin və ya onun qanuni nümayəndəsinin razılığı olduqda araşdırılır.

**Sorğuları şərh etdi: AHİK-in Hüquq şöbəsi**


**Baş redaktor:**
AQİL DADAŞOV
**Təsisçi:**
Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası

Qeydiyyat № 147
Tiraj: 7693
Sifariş: 1146
Redaksiyanın ünvanı:
Bakı - 1005,
Gənclər meydanı 3
Telefonlar: 492-75-55; 492-42-47

"Azərtürk Bank"
Hesab nömrəsi:
AZ08AZRT3809001944
0000132001
Kod: 5:0:7:6:9:9
VÖEN: 1700349431
İndeks: 0271

Qəzet redaksiyanın kompüter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" Nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.
e-mail: ulfet-az@mail.ru
Sərbəst qiymət